# *Azərbaycan MN:* Ermənistan müdafiə nazirliyi rəsmilərinin fantaziyaları tükənmir

**"Ermənistan müdafiə nazirliyinin rəsmi nümayəndələrinin fantaziyaları tükənmir. İşğalçı ordunun uğursuzluqlarından çıxılmaz vəziyyətdə qalan Ermənistan rəsmiləri uydurma və fantastik məlumatlar yaymaqla təsəlli tapırlar".**

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətinin məlumatında əksini tapıb.



Məlumatda qeyd olunub: "Görünən odur ki, Ermənistan ordusunun hər gün itirdiyi mövqeləri bu ölkənin müdafiə nazirliyinin nümayəndəsi virtual aləmdə "qəhrəmancasına geri qaytarmaqla" məşğuldur. Əslində isə onun hər dəfə bu və ya digər mövqeyin "geri qaytarılması" barədə fantastik məlumatlar verməsi Ermənistan ordusunun həmin mövqeləri itirdiyinin təsdiqidir. Qondarma rejimin və Ermənistan rəsmilərinin biri-birindən fərqli və ziddiyyətli məlumatlar yayması isə ermənilərin bu gün nə qədər acınacaqlı durumda olduğunu bir daha sübut edir.

Azərbaycan. - 2020.-8 oktyabr.- S.10.